# Azərbaycanda “E-hökumətin” tətbiqi prosesində mövcud vəziyyətin analizi, yaranan problemlərin  beynəlxalq təcrübə əsasında həlli yolları və təkliflər...

*Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin “E-hökumət”lə bağlı  elan etdiyi yazı müsabiqəsinin  II  turu üçün*

XƏYALƏ A.MƏMMƏDOVA

# İÇİNDƏKİLƏR:


- ***GİRİŞ*...............................................................................................3**

***1.Elektron hökumət strukturunun iş prosesi necə olmalıdır?............................3***

***2.Elektron hökumətin inkişaf mərhələləri necə olmalıdır?.................................6***

***3.Azərbaycan Respublikasının qanunvericiliyində E-hökumətin əksi, icra olunma***

***prosesləri və yaranan problemlərin analizi.......................................................9***

***4.E-hökumətin həyata keçirilməsində üzləşdiyimiz kadr çatışmamazlığı* problemi *və onun həlli yolları*.........................................................................................11**

***5.Bu gün e- xidmətlərin tətbiqinin genişləndirilməsindən danışırıqsa, bəs Milli Domen adlarının verilməsi xidməti bu gün nə səviyyədədir və mövcud problemlərin həlli yolları hansılardır?........................................................................................................ 13***

***6. E-hökumət portal beynəlxalq təcrübəyə əsasən hansı vacib xidmətlərə və funksionallıqlara sahib olmalıdır?(nümunə olaraq ABŞ-ın rəsmi dövlət portalı.)...15***

***7.Problemlərlə üzləşməmək üçün E-hökumətin həyata keçirilməsində inkişaf modeli və onun təməl qaynaqları necə tətbiq olunmalıdır?...................................................... 21***

***8.E-hökumətin həyata keçirilməsində və idarəedilməsində "e-mədəniyyətin"* vacibliyi..22**

- ***ƏDƏBİYYAT*.........................................................................................23**
- ***ƏLAVƏ –***

  ***Təklif etdiyim Elektron –hökumət dərsinin proqramı.......................................25***

Bügünki cəmiyyətimiz informasiya cəmiyyəti,dövlətimiz isə informasiya dövlətidir.Bu informasiya çağında yer almaq istəyən dövlətlər, bügünun və gələcəyin inzibati idarəetməsinin “elektron hökumət” anlayışı və tətbiqindən keçdiyini dərk edir və vurğulayırlar. Bu düşüncə ilə yola cıxsaq, ictimai idarəetmənin yenidən qurulması,yerli rəhbərliklərin daha təsirli və keyfiyyətli çalışması,bürokratiyanın azalması,dövlət rəhbərliyinin şəffaflaşması,əməliyyatların sürətli və dəqiq yerinə yetirilməsi və.s kimi mövzularda “elektron hökumətin”tətbiqinin böyük təsirinin olduğu ifadə edilir və bu sahənin inkişafı üçün davamlı olaraq investisiya yatırılır. İnformasiya dövründə ictimaiyyəti idarəetmək baxımında təbii olaraq radikal dəyişikliklər yaşanır.Bu prosesdə köklü dəyişikliklər etmək üçün mətbuatda ictimai birliklərdə informasiya texnologiyalarından istifadənin təbliğatının genişləndirilməsi və dövlət strukturunun yenidən qurulması lazımdır.

**Elektron hökumət;** ictimaiyyətə təqdim olunmuş elektron xidmətlərindən tutmuş rəqəmsal təhlükəsizliyə , online ticarət əməliyyatlarından e-mədəniyyətə, informasiya cinayətləri və əxlaqi (etik) problemlərdən rəqəmsal təhlükələrə , İnternetdə siyasətdən kiber kampaniyalara qədər uzanan bir çox mövzu və anlayışlarla yaxından əlaqəlidir.

Bildiyimiz kimi, E-hökumət iş vaxtında vətəndaş və təşkilatların,bütün sahələrdə qarşılıqlı həyata keçirilən proseslərin yenidən qurulması , **“coğrafi uzaqlıq”**, **“zaman”** ve **“vasitəsiz”** kimi faktorların əhəmiyyət qazanması deməkdir. (Şəkil-1).



**Ənənəvi dövlət anlayışı** **Elektron hökumət anlayışı**

**Şəkil-1 Ənənəvi dövlət anlayışından Elektron hökumət anlayışına keçid**

## 1.Elektron hökumət strukturunun iş prosesi necə olmalıdır?

E-hökumət-informasiya texnologiyaları ,internet- qısa desək bütün rabitə sistemləri media mühiti vasitəsilə daxili və xarici əlaqələrin e-transfer üsulu ilə xidmət keyfiyyətinin davamlı olaraq optimallaşdırılması ,yəni yaxşılaşdırılması deməkdir . Daxili və xarici əlaqələrə aid şəbəkələr hər zaman göz qarşısında saxlanılmalı və onların çoxistiqamətli inkişaf yolları haqqında düşünülməsi vacib olan bir sahədir. Bu səbəbdən E-hökumət sahəsində faydalı planlara ,layihələrə ehtiyac böyükdür çünki e-hökumət ictimai idarəetmə modernizasiyasında açar faktordur.

E-strukturunun iş prosesi- ümumi olaraq daxili və xarici əlaqələrdən ibarət olan şəbəkə 2 ana xətt şəkilində fəaliyyət göstərir.

**1 – Daxili Əlaqələr:**

- İctimai birliklər arasındakı əlaqələr
- İctimai birliklər və işçiləri arasındakı əlaqələr

**2 - Xarici Əlaqələr:**

- Dövlət –vətəndaş arasında əlaqələr
- Dövlət –təşkilatlar arasında əlaqələr
    - İctimai xidmətlərindən istifadə edənlər
    - Xidmət təminatçıları




**Şəkil 2.Elektron Hökumət Modelində Dövlət-Vətəndaş-Biznes Arakəsməsi.**

**Qeyd**:

- *Dövlət və vətəndaş arası (Government-to Citizen: G2C) əlaqələr,*
- *Dövlət və təşkilat arası (Government-to Business: G2B) əlaqələr,*
- *Dövlət qurumları arası (Government-to Government: G2G) və*
- *Dövlət və işçilər arası əlaqələr (Government-to Employee: G2E)*

E-hökumət , aşağıdakı şəkildən də göründüyü kimi, təşkilat rəhbərliyinin fəaliyyət və məhsuldarlığın təmin edilməsi, məlumat səviyyəsi daha yüksək vətəndaşların meydana gətirməsi, hər kəs üçün bərabər giriş, keyfiyyətli zəngin informasiya, inkişaf etdirilmiş xidmət asanlığı, müəssisə-sənaye-dövlət anlayışının qarşılıqlı inkişafına yardım etmək, maliyyə işlərinə qənaət, dövlət qurumlarında rüşvət və korrupsiyaya qarşı mübarizə, daha çox şəffaflıq və dövlət qurumları ilə əlaqə yaratmağın asan və rahat yollarını özündə cəmləşdirir.**(Şəkil 3)**

Bəs bu faydaları gerçəkləşdirmək üçün dövlət işlərində və iş zamanı hansı proseslər həyata keçirilməlidir?

**1.Sadələşdirmə**
**2. Asan keçid**
**3.Əlaqə**
**4.Sürət**
**5.Standartlaşdırma**
**6. Mənbələrin göstərilməsi**
**7. Məxfilik**
**8. Güvən**
**9. Fəaliyyətin gücləndirilməsi**
**10. Şəbəkə qurulması və s.**

Qeyd etdiyimiz bu kimi faktorların təmini ilə faydaları gerçəkləşdirmək olar.




**Şəkil 3 Elektron hökumətin faydaları**

## 2.Elektron hökumətin inkişaf mərhələləri necə olmalıdır?

Dövlət qurumlarında bu sahədəki iş proseslərinin yenidən qurulması və elektron prosesin tam başa çatması aparılan uzunmüddətli proseslərlə həyata keçirilir.Elektron hökumətin tətbiqi prosesi bir sıra mərhələlərdən keçir. **(Şəkil 4)**

**Mərhələ-1**: **İnformasiyanın yayılması** .

Dövlət qurumlarının internet mühitində yalnız məlumatlandırma məqsədi ilə məhdud sayda rəsmi veb-saytlarında informasiya yerləşdirilir.

**Mərhələ-2: Sistemləşdirilmiş şəkildə informasiyanın ötürülməsi**.

Vətəndaşlar tərəfindən daha çox istifadəsi təmin oluan,veb-saytlarında yerləşdirilməkdən başqa,nizamlı şəkildə linklər vasitəsilə digər saytlarla əlaqələr yaradılır.Bundan əlavə, axtarış modulları , e-poçt kimi seçimlərdən də istifadə etmək imkanı bu saytlarda yaradılır.

**Mərhələ -3: Qarşılıqlı fəaliyyət və əlaqələrin genişləndirilməsi.**

Vətəndaşların istək və ehtiyaclarını yerinə yetirmək istiqamətində birbaşa informasiyanı əldə etmək üçün girişi təmin edərək qarşılıqlı əlaqə yaratmaqlarını təmin etməkdir. Burda əsasən istifadəçilərin inzibati təşkilatlarla əlaqə yaratmağı,görüş təyin etmək,rəsmi anket formalarını doldurmaq və.s bu kimi xidmətlər daxildir.

**Mərhələ-4: İctimai xidmətlərin təşkili**.

Bu əməliyyatlara vergi ödəmə,viza almaq,passport əməliyyatları,doğum və ölüm qeydləri,lisenziyalar və.s kimi təhlükəsizlik və gizlilik tələb edən ictimai xidmətlərdir. Burada veb-saytların əhatəsi genişlənir və portal(əsas çıxış qapısı) yaradılır.Bununla da istifadəçilər bu saytlar vasitəsilə geniş informasiya şəbəkəsinə qoşula bilirlər. Bu proseslər zamanı elektron imzanın da tətbiqinin bir sıra sahələrdə leqallaşdırılması gözlənilir.

**Mərhələ-5: Tam inteqrasiya.**

Bu mərhələdə inzibati idarəetmə qurumlar , informasiyanın ötürülməsi və aparılan əməliyyatlar ortaq strukturda formalaşır. İş prosesini daha sürətləndirmək üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Hökumət üzrə Dövlət Agentliyi yaradılıb . Eyni zamanda ölkədə İKT sənayesinin inkişafı istiqamətində Azərbaycanda İnformasiya Kommunikasiya Texnalogiyalarının İnkişafı Fondunun yaradılmasını qeyd edə bilərik.




**Şəkil-4 Elektron hökumətin inkişaf mərhələləri**

## 3.Azərbaycan Respublikasının qanunvericiliyində E-hökumətin əksi, icra olunma prosesləri və yaranan problemlərin analizi.

Ümumilikdə götürsək ,2004-cü ildən başlayaraq ölkəmizdə E-Azərbaycan modelinin qurulmasında önəmli addımlar atılmışdır. Demək olar ki, Azərbaycanda telekommunikasiya infrastrukturu tamamilə modernləşdirilib. Ölkəmizin 60-70%-dən çoxunun internetlə təmin olunması,telekommunikasiya imkanlarının artması,insanlarda bu sahəyə marağın artması,sosial şəbəkələrin genişlənməsi,dövlət qurumlarında müxtəlif İnformasiya Kommunikasiya Texnologiyaları əsasında geniş layihələrin həyata keçirilməsi ,informasiya sistemlərinin yüksək səviyyədə qurulması, və.s kimi proseslər Elektron hökumət"in formalaşması prosesini sürətləndirir desək yanılmarıq. Bildiyimiz kimi,Elektron hökumət"in əsas funksiyalarından biri hakimiyyət tərəfindən insanlara verilən elektron xidmətlərin həm keyfiyyətinin, həm də kəmiyyətinin artırılmasıdır. Onu da qeyd etməliyik ki,"Elektron hökumət" yeni bir hüquqi mühit olduğu üçün onun hüquqi bazasının formalaşdırılmasına, inkişaf etdirilməsinə böyük ehtiyac var: «Azərbaycan qanunvericiliyində bu istiqamətdə müəyyən qanunlar qəbul edilsə də, beynəlxalq təcrübə ilə müqayisədə , bunların hələ də yeterli olmadığını bir daha deyə bilərik.Eyni zamanda qanunların tətbiqi ilə də bağlı ləngimələr var. Belə ki, Azərbaycan Respublikası Prezidentinin *23 may 2011-ci il tarixli № 429 nömrəli* "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanının

3.1-ci bəndində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə elektron xidmətin təkmilləşdirilməsi məqsədi ilə dövlət orqanlarının, eləcə də elektron imza xidmətindən istifadə məqsədi ilə müraciət edən hüquqi və fiziki şəxslərin elektron imza ilə təmin edilməsi işini təşkili tapşirilmiş və bununla əlaqədar həmin qurumun tərkibində Sertifikasiya Mərkəzi yaradılmış və e-imzaların əhaliyə paylanması işi uğurla həyata keçirilmişdir.
Lakin e-imzaların dövlət qurumlarına verilməsinə baxmayaraq, bir çox qurumlarda bunun tətbiqi yoxdur, yəni, daxili elektron sənəd dövriyyəsi yox, Elektron Hökumət Portalına qoşulma təmin edilməyib, avadanlıqlar da yox səviyyəsindədir. (server və s.)
Eyni zamanda qeyd olunan **Fərmanın 3.2-ci** bəndinə əsasən dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsinin aparılmasının təmin edilməsi məqsədi ilə zəruri tədbirlərin həyata keçirməsi tapşırılsa da, bu prosess də yarımçıq qalır.
Bununla yanaşı **Fərmanın 3.5-ci** bəndində dövlət qulluqçularının informasiya texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması məqsədi ilə tədris kurslarının təşkili istiqamətində zəruri tədbirlərin həyata keçirməsi tapşırılsa da , bu məsələnin həlli hələ də açıq qalır.Belə ki yalnız,

- 2012-ci ilin yay aylarında Koreyalı mütəxəssislərin bu sahədə təcrübəsinə həsr olunan qısamüddətli seminar keçirildi.
- 2013-cü ilin (01-05.07.2013) yayında Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında RİTN dövlət qulluqçuları üçün E-hökumət istiqaməti üzrə qısa müddətli ixtisasartırma kursu təşkil etmişdirlər.Yalnız 20 dövlət təşkilatı və hər təşkilatın nümayəndəsi iştirak etmişdir.

- Fərmanın 4.1-ci bəndində Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə "Elektron hökumət" portalının fəaliyyətinin təşkili və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görülməsi tapşırılır və bu məsələ öz həllini tapmaqdadır. Nazirliyə dövlət orqanlarının elektron xidmətlərini "Elektron hökumət" portalına qoşulmasını təmin etməsi tapşırılsa da, bəzi qurumlar üçün bu məsələ hələ də həll olunmayıb.

*RİTN e-xidmətləri portalda yerləşdirir, lakin onların işə düşməsi üçün dövlət qurumlarında lazımi texniki bazanın yaradılmasında iştirak etmir.*

- Eyni zamanda **Fərmanının** 5.1-ci bəndində Mərkəzi icra hakimiyyəti orqanlarına elektron xidmətlərin təşkilini sürətləndirsinlər və onların "Elektron hökumət" portalına qoşulması üçün zəruri tədbirlər görsünlər; bu məsələni həlli üçün də vəsaiti ayrilmadiğina görə məsələ həllini tapmır. Bəzi qurumlarda İnformasiya Texnologiyaları şöbəsi yoxdur, maliyyə vəsaiti ayrılmır, maddi-texniki baza yoxdur.
- Bundan başqa, **"Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin** 2013-cü il 5 fevral tarixli 813 nömrəli **Fərmanının** 2.1. bəndində iki ay müddətində Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin razılaşdırılmış təkliflərini nəzərə alaraq "2013-2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "elektron hökumət"in inkişafına dair Dövlət Proqramı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılmışdır.Əldə etdiyimiz məlumata görə layihə hazırdır ancaq hələ də təsdiq olunmur.Bu layihədə dövlət qurumlarında

elektron xidmətlərin təşkili üçün bütün çatışmamazlıqların aradan qaldırılması məsələləri nəzərdə tutulur. (Maliyyə vəsaitin ayrılmaması,kadr çatışmamazlığı və.s). Hazırda "elektron hökumət" portalına 39 dövlət orqanının informasiya sistemləri qoşulmuşdur. Bunlara Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Vergilər Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Tələbə Qəbulu üzrə Dövlət Komitəsi, Dövlət Sosial Müdafiə Fondu və digər strukturları aid etmək olar. Bu qurumların 200-dən artıq elektron xidmətinin portal vasitəsilə həyata keçirilməsi təmin olunmuşdur.

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 17 may tarixli 89 nömrəli və 2010-cu il 17 avqust tarixli 149 nömrəli qərarları ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin və "Fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması və dövlət qeydiyyatının ləğv edilməsi Qaydaları"nın icrasını təmin etmək məqsədilə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən dövlət informasiya ehtiyatlarının və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrləri yaradılmışdır və mövcud qanunvericiliyə əsasən həm dövlət informasiya ehtiyatları, həm də fərdi məlumatların informasiya sistemləri onların mülkiyyətçilərinin müraciəti əsasında icbari qaydada dövlət qeydiyyatına alınaraq reyestrə daxil edilməlidir. Bəzi qurumlar müraciət etsə də, bir çoxu hələ də bununla əlaqədar bir tədbir görmürlər. (E-gov saytına istinadən: Dövlət informasiya ehtiyatlarının reyestrində qeydiyyata alınmış informasiya ehtiyatları – 35, Fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrində qeydiyyata alınmış informasiya sistemləri -81).
- Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Prezidenti yanında **Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnaməsinin 3.1.10.3**. bəndinə əsasən həmin təşkilata dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə arayışlar, hesabatlar hazırlamaq hüququ verilmişdir.

Araşdırmalarıma əsasən 2013-cü ilin əvvəlindən bu təşkilat dövlət qurumlarında qiymətləndirmələr apararaq, bütün çatışmamazlıqları və nöqsanları əks etdirən arayışı Prezident Aparatına yazır. Çatışmazlıqlar kimi əsasən – bu sahəyə maliyyə vəsaitinin ayrılmaması , bəzi dövlət qurumlarında İT şöbələrin olmaması və kadr çatışmamazlığı qeyd olunur, lakin hələ də bu problemlərin həlli üçün heç bir tədbir görülməyib.

## 4.E-hökumətin həyata keçirilməsində üzləşdiyimiz kadr çatışmamazlığı və onun həlli yolları

Yuxarıda e-hökumətin qanunvericilikdə öz əksini tapması və bügünki problemlər haqqında qısa analiz etdik.Qanunların bu gün tam həyata keçirilməməsində problemlərdən biri də kadr çatışmamazlığıdır.İşçilərin də bu günki dəyişikliklərə savad baxımdan hazır olması lazımdır yoxsa ən yüksək səviyyəli sistem qurulsa belə savadsız işçi onu çökdürər.
E- hökumət layihələrinin hazırlanması və onların həyata keçirilməsi üçün ən önəmli faktorlardan biri də informasiya texnologiyaları sahəsində müasir tələblərə cavab verən kadrların olmasıdır.Bu sahədə olan əsas aparıcı qurumların öz çərçivələrinə görə kadr heyəti vardır.Ancaq kənar təşkilatların böyük əksəriyyətində bu faktor bir problem olaraq hələ də qalmaqdadır.Bəzi məqamlarda təcrübəli kadr heyəti olmayan təşkilatlar

bunun həlli yolunu İnformasiya texnologiyaları təşkilatlarına müraciət etməklə həll edirlər.Təşkilata aid məlumatların kənar şəxslər tərəfindən idarə olunmasının təbii ki öz riskləri vardır.

**Dövlət tərəfindən bu sahədə hansı addımlar atılıb?**

Güman edirəm ki, ilk olaraq Azərbaycan Respublikası Prezidentinin 2012-2013-cü il 13 iyul tarixli 685 nömrəli Fərmanına əsasən yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "ASAN XİDMƏT" mərkəzlərini qeyd etməliyik.
Çünki ölkənin intellektual qüvvəsinin artırılmasına, elmi-tədqiqat qurğularının inkişaf etdirilməsinə bu agentlik dəyərli töhfələrini verəcəkdir.Bundan başqa,"Elektron hökumət"in normativ-hüquqi bazasının inkişaf etdirilməsinin, inkişaf etmiş ölkələrin bu sahədəki qanunlarının öyrənilməsi, Azərbaycanda onların tətbiq olunması üçün qanunvericiliyin işlənib hazırlanması, bunların hamısı çox böyük zəhmət, intellektual potensial tələb edir.
Təbii ki, ARP yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə yüksək bacarıqlı kadrlar cəlb olunmalıdır.Həmin kadrlar daim olaraq hakimiyyət orqanları ilə əməkdaşlıq etməlidirlər.
Çünki hakimiyyət orqanlarının əməkdaşlarının hamısı "Elektron hökumət" alətləri üzrə mütəxəssis deyil. Mütəmadi treninqlər keçirmək, yeni layihələr təqdim etmək, beynəlxalq sənədlər və yeniliklər haqqında onları məlumatlandırmaq lazımdır.
Bundan başqa bu il yaradılan İnformasiya Texnologiyaları Universiteti düşünürəm ki,bu sahədə olan kadr boşluğunu doldurmaq üçün atılan önəmli addımlardan biridir.Burdakı üstünlüklərdən biri də tələbələrin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birlik və müəssisələrində təcrübə keçmək imkanı qazanması , məzunların Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birlik və müəssisələrində, özəl şirkətlərdə işlə təmin olunması məsələləri çox önəmlidir. Eyni zamanda universitetin məzunlarına xaricdə təhsillərini davam etdirmək üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən dəstək veriləcək. Universitetdə tədris ediləcək ixtisaslara "İnformasiya təhlükəsizliyi", "Kompüter elmləri", "Kompüter mühəndisliyi", "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" daxildir.
Bundan başqa "Elektron hökumət" təlim-tədris mərkəzinin yaradılması ilə bağlı işlər davam edir . Eyni zamanda dövlət qulluqçuları üçün hazırlıq səviyyələrinin artırılması üzrə tədbirlərin görülməsi üçün RİTN tərəfindən "Elektron hökumət" tədris sinfində onlara qısamüddətli ixtisasartırma kursları keçirilib.

**Bu sahədə olan problemləri aradan qaldırmaq üçün hansı addımları atmaq olar?**

- Beynəlxalq təcrübəyə əsaslanaraq, İKT sahəsi üzrə aparılan kadr siyasəti haqqında məlumat verildi.Bundan başqa onu da nəzərə almalıyıq ki,həmin mütəxəssislərin yaradacağı e-xidmətlərdən vətəndaşlar istifadə edəcəklər.Bunu nəzərə alaraq,təklifim ali məktəblərdə ixtisaslardan asılı olmayaraq bütün tələbələrə vacib olaraq, RİTN təyin etdiyi mütəxəssislərin rəhbərliyi ilə 1 semestrlik **"Elektron hökumət"** adlı ,sırf maarifləndirmə xarakteri daşıyan dərs tədris olunsun. Tədrsi olunacaq ali təhsil müəssisələrində həmin mütəxəssislər tərəfindən institut işçiləri və müəllimləri üçün qısamüddətli ixtisasartırma kursları və ya təlim də keçirilə bilər.

**(Təklif etdiyim Elektron –hökumət dərsinin proqramını da hazırlamışam.Əlavə bölməsində , məqalənin sonunda vermişəm)**

- Bundan başqa məktəblərimizdə 1-ci sinifdən 11-ci sinfə qədər "İnformatika" tədris olunur.Hal-hazırda bu sahədə inkişafı nəzərə alaraq, bu fənn buraxılış, qəbul imtahanlarına salınmalıdır.Bu addım həm məktəblərdə, həm də şagirdlərdə "İnformatika" fənninə qarşı münasibəti müsbət istiqamətdə dəyişəcək.
- Bu sahənin geniş inkişafı üçün beynəlxalq təcrübəyə əsaslanaraq RİTN təşkilatçılığı ilə evdar xanımlara kompüterdən istifadə ilə bağlı dərslər təşkil oluna bilər.Eyni zamanda gələcəkdə e-portalda yerləşdirilən xəbərlərə uyğun olaraq məlumatlandırıla bilərlər.

## 5.Bu gün e- xidmətlərin tətbiqinin genişləndirilməsindən danışırıqsa, bəs Milli Domen adlarının verilməsi xidməti bu gün nə səviyyədədir və hansı problemlər vardır?

Bildiyimiz kimi, hal-hazırda İnformasiya texnologiyaları sahəsinin ən sürətli inkişaf edən istiqamətlərindən biri İnternetdir. Bu şəbəkəyə qoşulan istənilən kompüter müəyyən rəqəmlər yığımını əks etdirən unikal kodla identifikasiya olunur. Özünün texniki mahiyyətinə görə belə kodlar IP-ünvanıdır.İstifadəçilər üçün internetdəki kompüterlərin ünvanlarını IP-ünvanla ifadə edərək əməliyyat aparmaq, rəqəmləri yadda saxlamaq çətin olduğundan, yaradılmış domen adları sistemi (Domain Name System, DNS) internet infrastrukturunun ən mühüm komponentlərindən biridir.Domen adı internetdə veb saytlardan istifadə üçün verilən ünvandır.

**Domen alarkən diqqət etməməyimizin vacib olduğu məqamlar:**

Domen adları təqdim edən təşkilatlar istifadəçidən bir hesab açmağı istəyirlər.Hər zaman xatırlayacağımız və şifrəsini unutmayacağımız bir istifadəçi hesabı yaratmalıyıq. Bu istifadəçi hesabı üçün verəcəyimiz e-poçt ünvanının doğru bir ünvan olması və davamlı olaraq istifadə edəcəyimiz bir ünvan olmalıdır. Ayrıca domeni alarkən bu domenin hansı serverdən yayınlanacağı və bu serverə aid DNS-nin nizamlı olmasını bilməyimiz şərtdir.

Fikirlərimizi yekunlaşdırmaq lazım olsa bir domenin rəhbərliyi üçün unudulmaması lazım olan məlumatlar:

1 - Domenin alındığı yerdə tanımlanan istifadəçi adı və şifrəsi

2 - İstifadəçi hesabı üçün təyin olunan e –poçt ünvanı və şifrəsi

3 – DNS-nin nizamı

Yuxarıda qeyd etdiklərimizə əməl etməyimizin səbəbi çünki internet dünyasında məhşur olan saytların domenlərini qamarlamaq kimi bir meyl vardır.İtirəcəyiniz domenlər üçün sonra minlərlə dollar ödəyərək bir başqasından geri almaq vəziyyətində qala bilərsiniz.

**Bəs bu gün Azərbaycanda milli domenlərin əldə olunması ilə bağlı vəziyyət nə yerdədir?**

Bununla bağlı ətrafımdakılarla qısa araşdırma apardım.Məlum oldu ki, vəziyyət o qədər də ürək açan deyil. Belə ki, bir çox vətəndaşlar “.az” domeni almaq üçün müraciət ediblər. Amma günlərlə müraciətlərə cavab veriımir.Eyni zamanda təklif etdiklər domen adını www.whois.az –saytında yoxlayıblar ən azı 15-20 dəfə problem çixmayıb.2-3 gün sonra yenə yoxlayarkən həmin domenin “artıq istifadə olunur” deyə cavab alıblar.Maraqlı anlardan biri saytda onlayn müraciət edilməsi üçün şərait yaradılsa da bir çox vətəndaşlara,birbaşa ,şəxsən “müraciət edin” deyə cavab veriblər.belə misalları çox çəkmək olar. Lakin bu gün bu cür problemlərin yaranması o qədər normal deyil.Çünki “.az.” domenin fəaliyyətə başlamasından nə az,nə çox 20 il keçir. Son zamanlarda domenlerin sayı artsada yenə də problemlər qalmaqdadır.Hətta başqa bölgələrdə yaşayan şəxslər domen əldə etmək üçün mütləq paytaxta üz tutmalıdırlar.Bu cür problemlər yaşandıqca artıq vətəndaşlar milli domendən imtina edirlər.Çünki əldə etməkdən başqa maraqlandığımıza görə istifadə etmək də bir problemdir.

Milli domenlə bağlı məhdudiyyətlər qeydiyyatla bağlıdır.Çünki qeydiyyat hələ də onlayn şəklində tam qurulmayıb,hələ də kustar yolla tətbiq edilir.Bu da öz növbəsində vətəndaşların rahatlığına ciddi ziyan vurur.Bundan başqa domenlərin təhlükəsizliyi ilə bağlı inamsızlıqlar da artır.Bu gün biz əgər “E-hökumətin “ yaradılması,inkişaf etdirilməsi yolunda ciddi addımlar atırıqsa,bu gün milli “.az” domenlərini qeydiyyatının kustar yolu ilə aparılması bu siyasətə heç uyğun gəlmir. Bir çox hallarda www.az domen adını yazdığımız zaman Azərbaycanla əlaqəsi olmayan informasiyalar da rastımıza çıxır.

Təbii ki,məqsədimiz hal-hazırda baş verən bu problemləri sadalamaq deyil,çözüm yolu tapmaqdır

**Milli Domen adlarının verilməsində yaranan problemlərin beynəlxalq təcrübəyə əsaslanan həlli yolları**

- Hər şeydən əvvəl bu sahədə baş verən problemlərin kökünü araşdırdıqda belə nəticələrə gəlmək olar ki, Milli Domen adını verən təşkilatın rəhbərliyi, internetin strukturunu, məntiqini və qlobal rəqabətin mahiyyətini anlamayıbdır.Bu səbəbdən minlərlə dollar pul bu sahədə fəaliyyət göstərən xarici təşkilatlara axır.Bunun üçün rəqabətə açıq olan Domen Adı siyasəti izlənilməlidir.Vaxt aparan sənəd işləri və digər şərtləri araşdırmadan Domen Adı təsis üsulu tətbiq edilməlidir.

- İnternetdə yalnız bir ölkə ilə məhdud qaydaları- həll yolu demək deyil.Bu baxımdan yerli siyasət və qaydaların bu sistemin tətbiq olunmasında təsirini göstərməsi yanlışdır. Hər hansı problemin həlli üçün DNS –in işçi heyəti tərəfindən ölkədaxili internet anketləri ilə nəticə əldə etmək siyasəti varsa,doğru deyil.

- Domen adı bir marka,ticari ad və ya fiziki şəxs adı deyildir.Bu baxımdan bu qaydalara da diqqət etmək lazımdır.

- Beynəlxalq aləmdə domen adı üçün “İlk gələn ilk alır” (first come, first served) qaydası artıq tətbiq olunub.Bizlərdə bu qaydaya hər nə qədər riayət olunmasa da, “əlavə etmə” və”paralel istifadə” hüququnun tanınması ilə çalışırlar.

- Ümumi adların verilməsinin haqsız rəqabətə yol açdığını bilə-bilə təsis əməliyyatını yenə də gerçəkləşdirən Milli domen adı verən təşkilat rəhbərliyinin bu hərəkətləri haqsız rəqabətdir və domen adını alan şəxlə birlikdə məsuliyyət daşıyır.

- Həmçinin domen adları sisteminin formalaşdırılması və onun əsasında uyğun elmi-nəzəri problemlərin araşdırılması üçün VİA(Verilənlərin İntellektual Analizi, ingilis dilində Data Mining).

metodlarından da istifadə etməklə modellər qurmaq və bunun əsasında məlumatlar arasındakı gizli əlaqələri tapmaqla faydalı olan lazımi bilikləri əldə etmək olar.

- Bundan başqa ,qeyd etdiyimiz bu problemləri həll etmək üçün ICANN (The Internet Corporation for Assigned Names and Numbers) tərəfindən akkreditə olunmuş problemləri aradan qaldıran bir mərkəz yaradılmalıdır. Təbii ki, sahə üzrə mütəxəssislər işə cəlb olunmalıdır.

Mükəmməl şəkildə qurulmuş qeydiyyat sistemləri,vətəndaşların hüquqların tam təmin edən idarə panelləri ilə tənzimlənən,domen adlarının qeydiyyatı zamanı müştərilərə müxtəlif texniki imkanlar verən,ən əsası bütün bu xidmətləri onlayn şəkildə 7 gün, 24 saat fasiləsiz həyata keçirən,alınan hər bir domenin beynəlxalq normalara uyğun şəkildə qoruyan tanınmış xarici təşkilatlardan olan **ICANN**'nın və İngiltərənin domen adlarının verilməsini təşkil edən (.uk) **Nominet'in** təsis modellərini araşıdırıb tətbiq etsək, problemləri həll etmə mexanizmalarından yararlansaq problemlərimizi qısa müddətdə həll edə bilərik. Nəticədə .az domen adlarının qeydiyyat hüquqları bu cür beynəlxalq qeydiyyat sistemlərinə verilər ya da ölkədə bu cür qeydiyyat sistemi yarada bilərik.

Məlumat üçün onu qeyd edim ki,**İCANN** ticari domen adlarını verir,1993-cü ildə ABŞ **Kommersiya** Departamentinin Network Solutions ilə bağladığı müqavilə əsasında işə başlamışdır.Bu razılaşma əsasında sonu .org,.com və .net ilə bitən domen adlarını əhatə edir.

Nominet isə İngiltərədə hökumət, İnternet sənayesi və istifadəçiləri tərəfindən rəsmi olaraq tanınan ". uk" domen adlarını verən təşkilatdır. Bu təşkilatın özəlliyi **Nominet'in ccTLD'lər** yəni **ölkə kodu top-level** domain adlarını da verməsi və bu sahədə yaranan problemlərin həlli ilə bağlı yaranan mübahisələri həll edərək hakimiyyəti ələ almasıdır.

## 6. E-hökumət portal beynəlxalq təcrübəyə əsasən hansı vacib xidmətlərə və funksionallıqlara sahib olmalıdır? (nümunə olaraq ABŞ-ın rəsmi dövlət portalı)

Portal bir veb-sayt olub internet vasitəsilə fəaliyyət gösteren bir çox veb saytlara yönələbilməyi təmin edən ana çıxış qapısını ifadə edir.Portalın məqsədi istifadəçilərin arzuladıqları sahədə axtardığı informasiyanı asan tapa bilmək və boş zaman sərf etməməkdir.

**Cədvəl 1.E-hökumət Portalı ve Veb-Sayt arasındakı fərqlər:**

| WEB SAYT | E-hökumət PORTALI |
|---|---|
| Əsas olaraq 1 səhifə | Dövlət tərəfindən təşkil edilmiş çox sayda qurumlara aid internet səhifələrinin bir araya gətirildiyi "çətir səhifə" və ya "ana çıxış qapısı" |
| Vahid qurumların siyahısı | Lazımi xidmətlərin siyahısı |
| Sabit məlumata əsaslanan | Dinamik olaraq informasiya və əlaqələrin qarşılıqlı ötürülməsi |

| | |
|---|---|
| Əməliyyat səviyyəsi aşağı | Əməliyyataparma həcmi və səviyyəsi yüksək |
| Bir qurum tərəfindən təşkil olunur | Təşkilatların səlahiyyəti daxilində istifadə ehtiyaca bağlı olaraq təşkil olunur. |
| İnformasiya texnologiyasından ayrı | İnformasiya texnologiyaları və sistemləri ilə inteqrasiya olunmuş |
| Zəif istifadəçi dəstəyi | Tam istifadəçi dəstəyi |

Bildiyimiz kimi, ölkəmizdə də "elektron hökumət"in formalaşdılrıması beynəlxalq təcrübəyə əsaslanır. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı, "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ-hüquqi aktlarla fəaliyyət üçün hüquqi baza yaradılmışdır. Ölkəmizdə bu il bu istiqamət üzrə görülən işlər çərçivəsində "E-hökumət" portalının yeni versiyası istifadəyə verilib və dövlət orqanlarının "E-hökumət" portalına qoşulması prosesi davam etdirilir…Bütün dövlət qurumları, mərkəzi icra hakimiyyəti orqanlarının bu prossesə qoşularaq daha geniş şəkildə "e-xidmət"ləri göstərməyə başlayıblar. Bunlar təmin etmək üçün ölkədə elektron hökumət portalı da yaradılıb və istifadəçilərin ixtiyarına verilib. Hazırda da "E-portala" qoşulmayan dövlət qurumlarının portala qoşulması tədricən təmin edilir.Hal-hazırda portala qoşulmuş dövlət qrumlarının sayı 30-dan çoxdur və www.e-gov.az saytında 130-a yaxın e-xidmət göstərilir.

Təbii ki, inkişaf üçün müəyyən addımları atılsada, yenə də iş prosesini gücləndirmək və əhaliyə keyfiyyətli iş təklif etmək üçün beynəlxalq təcrübədən mütləq yaralanmalıyıq.Bunu fikri rəhbər tutaraq, müxtəlif ölkələrə mənsub bir çox rəsmi e-hökumət portallarını araşdırdım.Əsasən aşağıda müxtəlif ölkələrə mənsub olan nümunəvi rəsmi elektron hökumət portalları göstərmişəm.Daha çox bəyəndiyim ABŞ-in rəsmi e-portalı oldu.

**Cədvəl 2.Müxtəlif ölkələrə mənsub nümunəvi e-hökumət portal adresləri**

| | |
|---|---|
| ABŞ | www.usa.gov |
| Almaniya | www.bundesregierung.de |
| Braziliya | www.redegoverno.gov.br |
| Finlandiya | www.eduskunta.fi |
| Fransa | www.service-public.fr |
| İngiltərə | www.ukonline.gov.uk |
| İrlandiya | www.irlgov.ie |
| İspaniya | www.la-moncloa.es |
| Kanada | www.canada.gc.ca |
| Koreya . | www.kois.go.kr |
| Meksika | www.precisa.gob.mx |
| Norveç | www.norge.no |
| Sinqapur | www.gov.sg |
| Yeni Zenlandiya | www.govt.nz |

Misal olaraq, aşağıda Amerika Birləşmiş Ştatlarının rəsmi dövlət portalının internet ünvanında olan online xidmətlərin həcmi , aydın anlaşıqlı dili və yeni funksiyaları ilə istifadəçilərə nə qədər yardım etdiyinin bir daha şahidi olacayıq.Sonunda müqayisə etdikdən sonra rahatca bizim portalda hansı xidmətlərin yaradılmasının vacib olduğunu və nümunəvi portallar sırasına qoşulmaq üçün hansı funksionallıqlara sahib olmasını rahat anlaya biləcəyik:

**NÜMUNƏ: ABŞ-rəsmi e-portal saytı** - www.usa.gov

**Ana Səhifənin quruluşu:**

Ana səhifə içərisində sol tərəfdə **" Sualını e-mail et"** bölməsinə rast gəlmək olar ki,burda dövlətin prezidentindən tutmuş , sıradan bir işçiyə qədər portal üzərindən xüsusi asan formanı dolduraraq sual göndərə bilərsiniz. Səhifənin tam ortasında "Xidmətlər,Bloqlar,Mövzular,Dövlət agentlikləri və dövlət təkilatları ilə əlaqə bölmələri var. Maraqlı bölmələrdən biri də sual ünvanlarkən Amerikada digər dövlətlərin səfirlikləri və ya Amerikanın başqa ölkələrdə fəaliyyət göstərən bütün səfirlikləri ilə qısa müddətdə portal vasitəsilə həm bütün məlumatları əldə etmək eyni zamanda istənilən sualı ünvanlamaq olar.Səhifədə aşağı sol tərəfdə isə bu portalın kimlər üçün nəzərdə tutulmağı ilə bağlı bölmələr var ki, bunlar " Vətəndaşlar,Biznesmenlər,Hökumət və dövlət işçiləri,investisiya qoyanlar,uşaq və gənclər və.s eyni zamanda mənim ən çox xoşuma gələn bölmə isə ABŞ-a ilk dəfə gələnlər üçün bir tək bu portala daxil olmaqla,iş haqqında,kirayə haqqında,övladlarının təhsili haqqında qısa müddətdə məlumat əldə edə bilmələri üçün yaradılan şəraitdir.

**Bundan başqa portalda xidmət göstərən e-xidmətlərə nəzər saldıqda , bizim portalımızda da cəmiyyətin sosial tələblərinə uyğun olaraq hansı yeni e-xidmətləri yaratmalıyıq sualına da asan cavab tapa bilərik.**

Qısa olaraq ana səhifədə E-hökumətin fəlsəfəsini özündə əks etdirən bütün xidmətləri ümumiləşdirib aşağıdakı sistemə uyğun MENÜ yarada bilərik: bunlar;

| Vətəndaşlar (G2C) | Təşkilatlar və maddi maraq güdməyən qurumlar (G2B) | İctimai xadimlər,dövlət işçiləri (G2E) | Dövlət qurumları arasında əlaqələrin inkişafı (G2G) |
|---|---|---|---|
| Dövlətin faydaları Alış-Veriş saytları Parklar ve İstirahət mərkəzləri İctimai,dövlət işlər I üçün müraciət Ünvan dəyişikliyi Sosial Güvənlik Pasport müraciəti Sürücülük vəsiqəsi yenilənməsi İmmiqrantların vəziyyətinə nəzarət Sağlamlıq,Təhlükəsizlik,Ailə,Ev və Birliklər vb. ………………… | İctimai xidmətlər,İctimai cəmiyyətlərlə işləmək,Tenderlər,Konvensiyalar və Razılaşmalar,Vergi sənədləri,Ödəniş hesabatları,İxracat Lisenziyaları,Online təhsil,Məlumat və statistika,Dövlətdən satınalma,Dövlətə satış, Ticarət icazəsi,Maddi yardım,Beynəlxalq Ticarət ……………… | Məhsul satınalma və xidmətlər,Təqaüd planları,Təhsil imkanları,Sağlamlıq planları,İş fürsətləri,Şəxsi məlumatların aktivləşdirilməsi,Karyera İnkişaf şərtləri,Qurumlar arası əməkdaşlıq,İctimai işçi siyasəti,İdarəetmə üsulları,İdarəetmə texnikası. ………………….. | Təsisatlar arası əlaqə və inkişaf,Xəritə vasitəsilə təşkilatları tapmaq mexanizminin inkişafı,İnzibati proses və əməliyyatların aparılması, Fövqəladə hallarda idarəetmə,İqtisadi İnkişaf ,Sağlamlıq və Ailə təhsili,Beynəlxalq Əməkdaşlıq şəbəkələri,Nəşrlər və arasdırma və.s |

**Dediklərimizi daha aydın şəkildə izah etmək üçün portalda fəaliyyət göstərən xidmətləri olduğu kimi aşağıda göstəririk:**

**Vətəndaşlar üçün On-line xidmətlər: (Ana səhifə)**

- Dövlətin vətəndaşlar üçün təklif etdiyi yardımlar,
- Özəl qulluğa ehtiyacı olanlar üçün baxım evləri haqqında məlumat,
- Ünvan dəyişikliyi,
- Biznes, hərrac
- Dövlət qulluğunda iş imkanları,
- Sosial təhlükəsizlik ,
- Tələbələr üçün kreditlərə müraciət,
- Məktəblər və kitabxanalar,

- Zip kodu axtarışı imkanı
- Pasport üçün müraciət
- İstirahət və Səyahət imkanları
- Doğum və nikah sənədləri üçün müraciət
- Sürücülük vəsiqəsi üçün müraciət və.s

***Vatandaşların ictimai xidmətləri (Alt Səhifə):***

**Online xidmətlər**

- Pul almaq,
- İstirahət və istirahət mərkəzləri ,
- Ünvan dəyişikliyi,
- İş axtarmaq ,
- Lotareya oyunları ,
- Pasport üçün müraciət.

**Dövlətin Vətəndaşa təklif etdiyi faydalı xidmətlər**

- Sosial güvənlik ,
- İşsizlik sığortası ,
- Yanacaq yardımı ,
- Uşaq sağlamlıq sığortası,
- Təqaüdçülərə yardım

**Yerli Xidmətlər**

- Yerli məktəb, kollec və kitabxanalar,
- Sizin ünvana ən yaxın poçt
- Sizin ünvana ən yaxın ictimai güvənlik ofisi ,
- Sizin ünvana ən yaxın ferma məhsulları satan marketlər

**Ətrafımızda baş verənlər və vəziyyət**

Hava haqqında məlumat

- İşsizlik maaşları,
- Bağlı yol və yollar haqqında
- Yerli qocalar evləri haqqında

**Sağlamlıq və güvənlik**

- Sağlıq üçün faydalı məlumatlar ,
- Doğru qidalanma haqqında məlumatlar

**Digər məlumatlar**

- Kənd Təsərrüfatı /ətraf mühit,
- Qrantlar /təqaüdlər,
- Müdafiə / global hadisələr,
- Təhsil, iş,
- Xəbərlər.

***İş həyatı üçün On-line xidmətlər (Ana Səhifə):***

- İş imkanları,
- İşlə əlaqədar qanun və tənzimləmələr,
- İctimai tenderləri və satışlar,
- Vergi bəyannaməsi doldurma və E-Fayl,
- İşəgötürən üçün ID nömrəsi alma imkanı
- İşçi talona, hesabat və ödənişlərlə əlaqədar mövzular,
- Kiçik bizneslə bağlı qeyd əməliyyatları,
- Müqavilələr
- Təchizatçı imkanları
- Patent sənədlər üçün müraciət və s.

**İş həyatı üçün təklif olunan xidmətlər (Alt Səhifə):**

- Elektron vergi bəyannaməsi doldurma,
- İşəgötürənlər üçün sosial təhlükəsizlik xidmətləri
- Vergi və ödənişlər,
- Kiçik biznesin yaranması üçün şəbəkələr
- Patent sənədləri üçün müraciətlər,
- Dövlət səviyyəsində satışlar ,
- Dövlət səviyyəsində iş imkanları,
- On-line iş müsahibəsi ,
- Hubzon sertifikatı,
- Dövlət iş lisenziyası
- Regional və yerli iş ətrafı / qaynaqlar
- İş axtarışı

**Karyeranın inkişaf etdirilməsi**

- İşə başlama / şirkət qurma və inkişaf,
- İş təhsili və məsləhət,
- Karyeranın inkişafı ,
- Dövlətdən satın alma,
- Dövlət səviyyəsində iş imkanları,
- Maliyyə nazirliyinin əlaqələri və faktura əməliyyatları.

**Dövlətdən Satın Alma və Dövlətdə Satış**

- Regional və yerli sahələr
- Xəzinə bonosu, xəzinə kağızları və investisiya variantları
- Tədarük xidməti,
- İş qadınlarına fürsətlər,

**Müəssisə Maliyyəsi və Vergilər**

- Dəstək xidmətləri
- Vergi və ödəniş hesabatları,
- Kreditlər,
- İxracat işləri.

**Qanunlar və hüquqi tənzimləmə**

- Ticarət / vəkili tapmaq.
- Regional və yerli iş qanunları,
- Yerli qaydalar,
- Təklif məktubu qaydaları.

**Beynəlxalq Ticarət**

- İxracat,
- Kommersiya araşdırmalar və bazar analizləri,
- Kommersiya bələdçi,
- Kommersiya qaynaqlar,
- Gömrük,
- E-ticarət və s.

**Təşkilat Rəhbəri üçün**

- İş və iş şəraiti ilə əlaqədar tənzimləmələr,
- İşə uyğunluq və sağlamlıq qaydaları,
- Təcrübəli kadrların olması .

**Tez-tez Soruşulan Suallar**

- İxracat və ticarət,
- Kiçik müəssisələrin inkişafı,
- Vergilər və s.

**Sizə ən yaxın xidmətlərdən istifadə**

- Yerli ixracat dəstək büroları,
- Kiçik biznes ofislərinin ünvanları,
- Peşə təhlükəsizliyi və sağlamlıq ofisləri və s.

**Dövlət üçün On-line Xidmətlər (Ana Səhifə):**

• Müavinətlər və qaynaqlar,
• Coğrafi məlumatlar,
• İnsan resursları haqqında ,
• Personal əmək haqqı əməliyyatları,
• İanələr ,
• Fəlakətlər və təhlükələr,
• Fəlakət və fövqəladə i vəziyyət üçün hərəkət planları,
• İnformasiya texnologiyaları və yenilik,
• Texnoloji yeniliklərlə əlaqədar məlumatlar,
• Xəbər şəbəkələri,
• Təzminatlar, işdən ayrılma və ödənişlər,
• Personellə əlaqədar mövzular,
Qanuni və hüquqi imkanlar,
• Ətraf mühit,
• Təhsil və iqtisadi inkişaf,
• İnfrastrukturun istifadəsi və s.
• Dövlətdə iş imkanları,
• Satın alma,
• Açıq hərrac və satışlar, və s.

**Dövlət üçün On-line xidmətlər (Alt Səhifə):**
• Regional və yerli qaynaqların araşdırılması,
• Dövlətdə iş imkanlarına müraciət ,

Ayrıca portalda "Axtarış sistemi" və İspanyolca eyni zamanda digər dillərdə də xidmət verilir.

## 7.Problemlərlə üzləşməmək üçün E-hökumətin həyata keçirilməsində inkişaf modeli və onun təməl qaynaqları necə tətbiq olunmalıdır?

Hər bir dövlətin daxili iş proseslərindən asılı olaraq, computer və texnologiyaların istifadəsi çox fərqli və qarışıq quruluşa malik olurlar. E-hökumətin də strukturuna əsasən "vətəndaş","təşkilat" və dövlət qurumlarına istiqamətdə e-xidmətlərin təşkili önəmli məsələlərdəndir.Dövlət daim olaraq yeni texnologiyaların dəstəyi ilə bu 3 faktor istiqamətində baş verən daxili proses və mexanizmaları yenidən gözdən keçirməktə və inkişaf elətdirməkdədir.(**Şəkil 5** )
Elektron Hökumət Modeli əsas olaraq "**informasiya idarəetməsi", "zamanın yenidən idarəolunması"** və **"keyfiyyət idarəçiliyi "** anlayışlarının bütövlüyü ilə meydana gəlir. Hal-hazırda qlobal rəqabət mühitindəki vəziyyət "e-hökumət" anlayışının da rəqabətli olmasını tələb edir.

**Şəkil 5. Elektron Hökumət Modeli.ELEKTRON HÖKUMƏT STRATEGİYASI**




## 8.E-hökumətin həyata keçirilməsindəvə idarəedilməsində e-mədəniyyətin vacibliyi

Yaşadığımız dövrdə informasiya və kommunikasiya texnologiyaları həyatımıza xüsusilə də iş prosesi zamanı güdən-günə öz təsir gücünü daha da gücləndirir. E-hökumətin həyata keçirilmə prosesində keyfiyyətli elektron mühit yaratmaq üçün bir sıra şərtləri yerinə yetirmək lazımdır.Özü ilə bərabər yeni dəyər,mədəniyyət,idarəetmə qaydaları gətirən e-ictimaiyyət anlayışının kökündə əslində vətəndaşın ictimai və iş mühitində keyfiyyətli ,hədəflənmiş xidmətləri gözləməsi durur.İnformasiya texnologiyaları və e-xidmətlərin əsas məqsədi, onları təşkil edən qurumların fəaliyyətinə, proseslərin yenilənməsi,iş mühitinin yenidən formalaşdırılması ilə bağlı yaranan faydaları təmin etməkdir. Bu baxımdan dövlət qurumları arasında e-mədəniyyət inkişaf etdirilməsi və təbliğ olunmalıdır.E-mədəniyyət anlayışını mənimsəyən bir e-dövlət, öz qurumları arasında eləcə də cəmiyyətdə e-mədəniyyətin təbliğatını genişləndirsə, o zaman informasiya texnologiyalarının tətbiqində arzuolunan nəticəni verilməsi istiqamətində məqsədə çatılacaq. E-mədəniyyət proqramlarının hazırlanması və qüvvəyə minməsi bu maneələrin aşılması və informasiya-texnologiyalarının tətbiqində köməkçi rol oynayacaq. E-hökumətin inkişafının gücləndirilməsində və ictimai həyatda e-hökumətin inkişafının həyata keçirilməsində və e-mədəniyyətin təbliğatının aparılmasında 3 əsas faktor vardır. Bunlar; insan zaman və Texnoloji infrastrukturdur.(**Səkil 6)** Hər üç factor dəyişib və sürətlə inkişaf etdikcə bu

faktorların öz aralarındakı uyğunlaşmanın təmin olunması son dərəcə çətin olur.

**E-HÖKUMƏT**
**XİDMƏT STRATEGİYASI**

**İNSAN** **ZAMAN**

**TEXNOLOGİYA**

**ŞƏKİL 6. E-hökumətin xidmət strategiyası və əsas təməl qaynaqları**

Qurum idarəçiliyində mövcud insan qaynaqlarının yeni texnologiyalarla uyğun işləyə bilməsi, bilik və qabiliyyətlərinin artırılması,iş məsuliyyətlərini müsbət istiqamətdə dəyişdirilməsində, təhsil proqramları,şəffaflıq, ünsiyyət, doğru koordinasiya edilməsində , güclü liderlik xüsusiyyətlərinə sahib idarəçilər hər zaman böyük rol oynayır. Bu baxımdan e-hökumət ümumi vizyonu yaradılarkən "texnologiya", "insan" və "zaman" anlayışlarını bir yerdə işləməli və cəmiyyətin hər seqmentinə uyğun e-mədəniyyət və e-həyat hərəkət planlarını tərtib etməlidirlər.Texnoloji vasitə və vəsaitləri təşkilat mühitində çəkisini artırması ilə birlikdə işçilərin məlumat səviyyələri və qabiliyyətlərinin nə dərəcə inkişaf edəcəyi üzərində diqqətlə durulmalıdır .
**“İnformasiya gücdür” anlayışı artıq “İnformasiya mübadiləsi gücdür”düşüncəsi ilə əvəz olunmuşdur.**
Dövlət qurumlarında e-mədəniyyət mühitinin yaradılması, texnologiyanın təminindən daha önəmli bir problemdir. Yüksək texnologiya əlbəttə ki,bir çox işçinin etdiyi işi daha sürətlə və problemsiz həll etmək deməkdir. Bu baxımdan dövlət qurumlarında çalışanlar da digər çalışanlar kimi hər yeni texnologiya ilə birlikdə narahatlıq yaşayırlar.Bunların qarşısını almaq üçün təşkilatlarda fəaliyyət,ödəmə siyasəti,işəgötürmə prosesləri,nizam-intizam,rüşvət və korrupsiyaya qarşı mübarizə, e -işin strukturu və s . kimi mövzularda dövrün tələb etdiyi infrastruktur təmin edilməlidir. Dövlətin, dövlət təşkilatları arasında, informasiya bütövlüyü və koordinasiyasını təmin etmək, şəffaf idarəetmə vizionu anlayışı ilə daha səviyyəli işlər görmək,layihələr həyata keçirmək , şəffaf idarəetmə vizionu anlayışı ilə daha effektli işlər reallaşdırmaq, e-hökumət layihələrinin sürətlə həyata keçirilməsini sürətləndirir.Təbii ki,dövlətin bütün fəaliyyəti e-hökumət anlayışını tam reallaşdırması üçün bu sahədə uzunmüddətli iş planlarını ilə birlikdə,təhsil ilə informasiya texnologiyalarının inkişafına investisiya qoymaqla mümkün olacaqdır.
E-Mədəniyyət və e-həyat anlayışları həyatımızın hər sahəsində qarşımıza çıxır. E-mədəniyyətin bir cəmiyyətdə inkişafı , həmin ölkənin iqtisadiyyatı,sosial,siyasi,mədəni və texnoloji sahələrinin inkişafı deməkdir. Müasir dövlət anlayışının təməl ünsürləri olan "e-hökumət", "e-demokratiya", "e-siyasət", "e-vətəndaş" və "e-mədəniyyət" kimi yeni anlayış və tətbiqlər dünyada ABŞ, Avropa Birliyi

(AB) və Asiya 'dakı bir neçə inkişaf etmiş ölkə xaricində kifayət qədər məşhur deyil. İsveçrə, Yaponiya və ABŞ kimi ölkələr hər adam başına 3.000-3.500 dollar ətrafında sərmayə qoymaları, iqtisadi inkişaf sürəti və e-hökumətin inkişafı baxımdan əhəmiyyətli bir rəqəmdir. Artıq bir çox ölkələr xüsusilə də Avropa Birliyinə daxil olan şimal ölkələri də bu siyasəti təqib etməkdədir.

**ƏDƏBİYYAT:**


- Call Mc. Tom, ”World Wide Business”, http://www4.gartner.com/5_about/ press_room/pr20010313a.html
- Cerf V.G.; “A Brief History Of The İnternet and Related Networks”,
- http://www.isoc.org/İnternet/history/cerf.shtml
- Ellerbach, Connie L.;”Domain Name Dispute Remedies: Tools for Tarning the
- World Wide Web”, http://www.fenwick.com/docstore/publications/IP/
- Domain_Name_Dispute.pdf/, 2003.
- “Common Law Trademark Rights”, http://www.bitlaw.com/trademark/common.html eResolution, http://www.disputes.
- ERDAL, Murat; (2002), “Elektronik Bilgi Çagında Kamu Yönetimi ve Bir Yerel Yönetim Uygulaması: _stanbul Büyüksehir Belediyesi”, I. Bilgi,Ekonomi ve Yönetim Kongresi Bildiriler Kitabı, 10–11 Mayıs, Kocaeli
- Froomkin, Michael; “Icann’s Uniform Dispute Resolution Policy-Causes and

  Partial Cures”, Brooklyn Law Review, Volume 67, Number 3
- Generic Top Level Domain Memorandum of Understanding; http://www.gtldmou.org/.
- http://www.ictnews.az/
- REDDICK, Christopher G.; (2005), “Citizen Interaction with e-Government:

From the streets to servers?”, Government Information Quarterly, 22(1), ss. 38–57.

- REDDICK, Ghristopher G.; (2004), “Empirical Models of e-Government in

Local Governments”, E-Service Journal, Winter 2004, 3(2), ss. 1–18.

- www.e-imza.az
- www.e-gov.az

# <u>**ƏLAVƏ**</u>

***Təklif etdiyim Elektron –hökumət dərsinin proqramı***

**DƏRSİN ADI : E-HÖKUMƏT**

**Dərsin Məqsədi:**

Bu dərsin məqsədi son illərdə önəmli yer almağa başlayan e-hökumət anlayışına aid nəzəri bir infrastrukturun yaradılması və tətbiqi zamanı e-hökumətin fərqli inkişaf istiqamətlərini müzakirə etməkdir.

**Dərsin mahiyyətinə uyğun olaraq müzakirə ediləcək mövzular aşağıdakılardır:**

•E-hökumət və quruluşu

•E-hökumətin tətbiqi yolları

•İnformasiya Cəmiyyəti Strategiyası

•E-hökumətə təsir edən faktorlar

•İnternetdə siyasət,e-demokratiya və e-idarəetmə

•E-hökumətin iqtisadi siyasətə giriş tarixi

•Azərbaycanda E-hökumətin çətinlikləri

•Texnologiya və Milli Təhlükəsizlik

•E-hökumətin tətbiqində məlumat təhlükəsizliyinin təmini

•İnternetdə Əxlaqi Problemlər

•E-hökumət və beynəlxalq təcrübə

•E-hökumət və E-Azərbaycan arasında qiymətləndirmələr

•E-Azərbaycan layihəsi və tətbiqi

•E-bələdiyyə sisteminin tətbiqi

•Milli Məclisdə E-hökumət

•Azərbaycanda e-hazırlıq və e-dövlətləşmə

•Azərbaycanda E-hökumətin tətbiqində elektron sənədləşmə

•Azərbaycanda e-imza,elektron dövlət proqramları

•Azərbaycanda e-hökumətin tətbiqində elektron informasiya idarəçiliyi

•Azərbaycanda təhsil sahəsində informasiya sistemləri və tətbiqində yaranan problemlər

**Qiymətləndirmə:**

Dərslərin oxumasında və müzakirələrdən başqa aralıq və final imtahanları tətbiq ediləcək.

Təqdimat işi-20%

Gündəlik quiz-20%

Aralıq imtahanı-25%

Final imtahanı-25%

Davamiyyət/Müzakirə-10%

**Əlavə qeydlər:**

Gündəlik dərslər dərs proqramına uyğun olaraq aparılacaq,bütün tələbələr dərs planına uyğun olaraq hazırlaşmalı,təqdimat edəcək tələbələr başda olmaq şərtilə müzakirələrə hazır gəlməlidirlər.

Hər tələbədən dərs çərçivəsində müəllimin seçimi ilə bir tapşırıq hazırlamalı və dərsi izləməlidir. Hazırlanan hər bir tapşırıq dərs sonunda 15-20 dəq ərzində çıxış etmələri ilə həyata keçiriləcək.